*“Metafizika” Journal*
***Vol 8, issue 8, serial 36, 2025. pp.70-81***

***AcademyGate Publishing***
***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***

**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 391
10.33864/2617-751X.2025.v8.i8.70-81

# MANAGEMENT OF THE EDUCATIONAL PROCESS IN MILITARY EDUCATIONAL INSTITUTIONS OF AZERBAIJAN

**Mujkan Mammadzade***

**Abstract.** This article analyzes the current state of managing the educational process in the higher military educational institutions of the Republic of Azerbaijan, the applied management models, technological innovations, and the main challenges encountered. The findings reveal that, although the management system in Azerbaijan's military education institutions is traditionally based on a classical military structure, in recent years, functional and modular approaches have begun to be integrated. Strategic planning, results-oriented management, and the adoption of electronic administration systems have been directed toward enhancing the overall efficiency of the educational process. Within the framework of digitalization, the implementation of electronic learning platforms, the digitalization of attendance and assessment systems, and the consolidation of instructional materials into unified databases have yielded positive results. Moreover, the inclusion of modules based on simulation technologies, virtual reality, and unmanned aerial vehicle (UAV) operations in military curricula has improved the quality of practical training. The integration of cyber security, information warfare, and artificial intelligence technologies into the educational framework is identified as a crucial factor in shaping the future directions of military education. Nevertheless, the research indicates that several challenges persist. One of the most significant is the shortage of qualified military-pedagogical personnel. The number of specialists familiar with modern combat technologies and international teaching methods is limited. This negatively affects the effective implementation of innovative programs. Additionally, disparities in the distribution of technical and material resources among institutions result in unequal access to simulation and e-learning tools. Within the framework of international cooperation, the implementation of joint programs with NATO and other partner countries sometimes remains limited to a local scale and is not integrated into the broader system.

**Keywords:** Military education, Educational process, Management models, Simulation technologies, Personnel training

---

* PhD in Pedagogy,
Military Scientific Research Institute, National Defense University; Baku, Azerbaijan
E-mail: mujkan@mail.ru
https://orcid.org/0000-0001-5693-3748

**To cite this article:** Mammadzade, M. [2025]. MANAGEMENT OF THE EDUCATIONAL PROCESS IN MILITARY EDUCATIONAL INSTITUTIONS OF AZERBAIJAN. *“Metafizika” journal, 8*(8), pp.70-81.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.70-81

***Article history:***
*Received: 16.06.2025*
*Accepted: 03.07.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*"Metafizika" Journal* **AcademyGate Publishing**
*Vol 8, issue 8, serial 36, 2025. pp.70-81* ***p-ISSN 2616-6879; e-ISSN 2617-751X***

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 391
10.33864/2617-751X.2025.v8.i8.70-81

# УПРАВЛЕНИЕ УЧЕБНЫМ ПРОЦЕССОМ В ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА

**Мюжкан Маммадзада***

**Абстракт.** В данной статье рассматривается текущее состояние управления учебным процессом в высших военных учебных заведениях Азербайджанской Республики, анализируются применяемые модели управления, технологические новшества, а также основные возникающие проблемы. В результате исследования установлено, что, несмотря на то, что управление в военных учебных учреждениях Азербайджана основано на традиционной классической военной структуре, в последние годы в систему начали внедряться функциональные и модульные подходы. Стратегическое планирование, результат-ориентированное управление и электронные системы администрирования направлены на повышение эффективности учебного процесса. В рамках процесса цифровизации положительные результаты демонстрируют внедрение электронных учебных платформ, электронизация учёта посещаемости и оценивания, а также консолидация учебно-методических материалов в единую базу данных. В то же время включение модулей по технологиям симуляции, моделям обучения на основе виртуальной реальности и беспилотным летательным аппаратам в программы военного образования повысило качество практической подготовки. Интеграция в учебный процесс тематики кибербезопасности, информационных войн и технологий искусственного интеллекта выступает в качестве одного из ключевых факторов, определяющих векторы дальнейшего развития военного образования. Тем не менее исследование показывает наличие ряда проблем. Одной из наиболее серьёзных является дефицит квалифицированных военно-педагогических кадров. Количество специалистов, владеющих современными боевыми технологиями и международными методами обучения, ограничено. Это оказывает негативное влияние на эффективное внедрение инновационных программ. Одновременно наблюдается неравномерное распределение материально-технических ресурсов между высшими военными учебными заведениями, а также различия в доступе к возможностям симуляции и электронного обучения. В рамках международного сотрудничества реализация совместных программ с НАТО и другими странами-партнерами иногда ограничивается локальным уровнем и не интегрируется в более широкую систему.

**Ключевые слова:** Военное образование, Учебный процесс, Модели управления, Симуляционные технологии, Подготовка кадров

---

* Кандидат философских наук по педагогике,
Институт военных научных исследований Национального университета обороны; Баку, Азербайджан
E-mail: mujkan@mail.ru
https://orcid.org/0000-0001-5693-3748

**Цитировать статью:** Маммадзада, М. [2025]. УПРАВЛЕНИЕ УЧЕБНЫМ ПРОЦЕССОМ В ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ АЗЕРБАЙДЖАНА. *Журнал «Metafizika», 8*(8), с.70-81.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.70-81

***История статьи:***
*Статья поступила в редакцию: 16.06.2025*
*Отправлена на доработку: 03.07.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 8, issue 8, serial 36, 2025. pp.70-81*

*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 391
10.33864/2617-751X.2025.v8.i8.70-81

# AZƏRBAYCANIN HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏDRİS PROSESİNİN İDARƏ OLUNMASI

**Müjkan Məmmədzadə***

**Abstrakt.** Bu məqalə Azərbaycan Respublikasının ali hərbi təhsil müəssisələrində tədris prosesinin idarə olunması sahəsində mövcud vəziyyəti, tətbiq edilən idarəetmə modellərini, texnoloji yenilikləri və qarşıya çıxan əsas problemləri təhlil edir. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan hərbi təhsil müəssisələrində idarəetmə ənənəvi klassik hərbi struktur üzərində qurulsa da, son illərdə bu sistemə funksional və modulyar yanaşmalar daxil edilməyə başlanmışdır. Strateji planlaşdırma, nəticəyönlü idarəetmə və elektron idarəetmə sistemləri tədris prosesinin səmərəliliyini artırmağa yönəlib. Rəqəmsallaşma prosesi çərçivəsində elektron tədris platformalarının tətbiqi, davamiyyət və qiymətləndirmə sistemlərinin elektronlaşdırılması, təlim-tədris materiallarının vahid bazada toplanması müsbət nəticələr verməkdədir. Eyni zamanda, hərbi təhsil proqramlarına simulyasiya texnologiyalarının, virtual reallıq əsaslı tədris modellərinin və pilotsuz uçuş aparatlarının istifadəsi üzrə modulların daxil edilməsi praktiki təlimin keyfiyyətini artırmışdır. Kiber təhlükəsizlik, informasiya müharibəsi və süni intellekt texnologiyalarının da tədrisə inteqrasiyası hərbi təhsilin gələcək inkişaf istiqamətlərini müəyyən edən əsas amillər kimi çıxış edir. Bununla belə, tədqiqat göstərir ki, bu sahədə müəyyən çətinliklər də mövcuddur. Ən ciddi problemlərdən biri ixtisaslı hərbi-pedaqoji heyətin çatışmazlığıdır. Müasir döyüş texnologiyalarını və beynəlxalq tədris metodlarını bilən mütəxəssislərin sayı məhduddur. Bu isə innovativ proqramların effektiv tətbiqinə mənfi təsir göstərir. Eyni zamanda, ali hərbi təhsil müəssisələri arasında maddi-texniki resursların qeyri-bərabər bölgüsü, simulyasiya və elektron tədris imkanlarına çıxış fərqləri müşahidə olunur. Beynəlxalq əməkdaşlıq çərçivəsində NATO və digər tərəfdaş ölkələrlə birgə proqramların tətbiqi də bəzən yalnız lokal miqyasda qalır və geniş sistemə inteqrasiya olunmur.

**Açar sözlər:** Hərbi təhsil, Tədris prosesi, İdarəetmə modelləri, Simulyasiya texnologiyaları, Kadr hazırlığı

---

* Pedaqogika üzrə fəlsəfə doktoru,
Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu; Bakı, Azərbaycan
E-mail: mujkan@mail.ru
https://orcid.org/0000-0001-5693-3748

**Məqaləyə istinad:** Məmmədzadə, M. [2025]. AZƏRBAYCANIN HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏDRİS PROSESİNİN İDARƏ OLUNMASI. *“Metafizika” jurnalı, 8*(8), səh.70-81.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.70-81

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 16.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 03.07.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin formalaşması və inkişafında hərbi təhsil mühüm rol oynamışdır. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi göstərdi ki, yüksək ixtisaslı və müasir biliklərə malik zabit heyətinin hazırlanması yalnız döyüş meydanında uğurun deyil, həm də siyasi və strateji üstünlüyün açarıdır. Bu kontekstdə ali hərbi təhsil müəssisələrində tədris prosesinin necə idarə olunması, tədris proqramlarının struktur və məzmun baxımından necə formalaşdırıldığı, müəllim və təlimatçı heyətinin hazırlıq səviyyəsi və monitorinq mexanizmləri tədqiqat üçün aktual və zəruri mövzulardan biridir.

Azərbaycanın hərbi təhsil sistemi post-sovet dövründə milli maraqlara və beynəlxalq çağırışlara cavab verəcək şəkildə yenidən qurulmuşdur. Əvvəlki sovet modelindən fərqli olaraq, müasir mərhələdə tədris prosesinə strateji planlaşdırma, liderlik bacarıqlarının inkişafı, analitik düşüncə və texnoloji savadlılıq kimi komponentlər daxil edilmişdir. NATO ilə əməkdaşlıq çərçivəsində beynəlxalq standartların tətbiqi, simulyasiya texnologiyalarının istifadəsi və real döyüş təcrübələrinin tədris proqramlarına inteqrasiyası bu sahədə mühüm irəliləyişlərə səbəb olmuşdur.

Lakin bütün bu yeniliklərlə yanaşı, tədris prosesinin idarə olunmasında qarşıya çıxan çağırışlar - o cümlədən kadr resurslarının məhdudluğu, resursların qeyri-bərabər bölgüsü və akademik yanaşmaların bəzən praktik reallıqlarla uyğun gəlməməsi - hələ də öz aktuallığını qoruyur. Beləliklə, hərbi təhsil müəssisələrində tədris prosesinin necə və hansı mexanizmlərlə idarə olunduğunun öyrənilməsi dövrün tələbləri baxımından son dərəcə *aktuallıq* kəsb edir.

Bu tədqiqatın *obyekti* Azərbaycan Respublikasının ali hərbi təhsil müəssisələrində həyata keçirilən tədris prosesinin idarə olunması mexanizmləridir.

Tədqiqatın *predmeti* isə ali hərbi təhsil müəssisələrində tədris prosesinin planlaşdırılması, icrası, nəzarəti, qiymətləndirilməsi, təlim metodlarının seçimi, müəllim-təlimatçı heyətinin rolu, kursantların təlimə cəlb olunma formaları və bu idarəetmə sistemində tətbiq olunan müasir texnologiyalardır.

Tədqiqatın *əsas məqsədi*- Azərbaycanın ali hərbi təhsil müəssisələrində tədris prosesinin idarə olunma sistemini təhlil etmək, mövcud vəziyyəti qiymətləndirmək və bu sahədə daha effektiv və müasir yanaşmaların tətbiqi üçün tövsiyələr təqdim etməkdir.

Bu tədqiqatda aşağıdakı elmi metodlardan istifadə olunmuşdur:

1. Analitik-metodik təhlil - Hərbi tədris idarəetmə sisteminin elmi əsaslarla strukturlaşdırılması və təhlili.
2. Sistemli yanaşma - tədris idarəetməsinin müxtəlif komponentləri arasında qarşılıqlı əlaqələrin müəyyənləşdirilməsi.

3. Müqayisəli təhlil - Azərbaycan hərbi təhsil sisteminin NATO və regional ölkələrin analoji strukturları ilə müqayisəsi.

**2.Tədris prosesinin idarəetmə modelləri**

Azərbaycanın hərbi təhsil müəssisələrində tədris prosesinin idarə olunması özünəməxsus xüsusiyyətlərə malikdir və mülki təhsil müəssisələrinin idarəetmə modellərindən nəzərəçarpacaq dərəcədə fərqlənir. Bu fərq əsasən vəzifə intizamı, komanda əsaslı rəhbərlik və funksional iyerarxiya prinsiplərinə əsaslanan strukturla izah olunur. Tədris prosesinin idarə olunması sadəcə dərslərin təşkili və keçirilməsi ilə məhdudlaşmır, eyni zamanda kursantların mənəvi-psixoloji hazırlığı, fiziki qabiliyyətlərinin inkişafı, liderlik və qərarvermə bacarıqlarının formalaşdırılması da bu sistemin tərkib hissəsidir [1].

Azərbaycanın hərbi təhsil sistemində ənənəvi olaraq tətbiq edilən klassik idarəetmə modeli, əsasən sabit strukturlu, əmrlərə əsaslanan, aşağıdan-yuxarı hesabatlılıq prinsipinə söykənən sistemdir. Bu modeldə rəhbərlik səlahiyyətləri aydın şəkildə bölünmüşdür: məktəb rəhbərliyi (komandanlıq), fakültə və bölmə rəhbərləri, müəllim-təlimatçı heyəti və kursantlar arasında dəqiq intizam və məsuliyyət bölgüsü mövcuddur [2]. Ənənəvi modelin üstünlükləri sırasında qərarların tez və effektiv icrası, strukturun sabitliyi və sistemli nəzarət mexanizmləri yer alır.

Bununla belə, klassik model bəzi hallarda çeviklik və innovasiyaların tətbiqində gecikmələrə səbəb ola bilər. Bu, xüsusilə müasir döyüş konsepsiyalarının və texnologiyalarının sürətlə dəyişdiyi bir dövrdə diqqətə alınmalı bir məqamdır.

Son illərdə Azərbaycan ali hərbi təhsil sistemində funksional və modul idarəetmə elementləri də tətbiq edilməyə başlanmışdır ki, bu yanaşma hərbi idarəetmədə daha çevik və ixtisaslaşmış struktur yaratmağa imkan verir. Modul yanaşması dedikdə, təlim-tədris proqramlarının ayrı-ayrı funksional bloklara bölünməsi və bu blokların müstəqil şəkildə planlaşdırılıb qiymətləndirilməsi nəzərdə tutulur. Misal üçün, taktiki hazırlıq, döyüş rəhbərliyi, informasiya texnologiyaları, mühəndis-texniki biliklər və s. istiqamətlər üzrə ixtisas modulları təşkil olunur [3].

Bu idarəetmə forması kursantların fərdi qabiliyyətlərini nəzərə almağa və onların ixtisas yönümündə daha dərindən inkişafını təmin etməyə şərait yaradır. Eyni zamanda, modulyar sistem NATO və digər beynəlxalq tərəfdaş ölkələrin hərbi təhsil proqramları ilə uzlaşmanı asanlaşdırır [4].

Müasir hərbi idarəetmə yanaşmalarında tədris prosesinə strateji planlaşdırma və nəticəyönlü idarəetmə mexanizmlərinin daxil edilməsi mühüm yer tutur. Bu yanaşmada əsas məqsəd konkret nəticələrin (kompetensiyalar, liderlik bacarıqları, qərarvermə vərdişləri və s.) əldə olunmasıdır. Belə yanaşma Azərbaycanın 2020-ci ildən sonra keçdiyi hərbi islahatlar fonunda daha da aktuallaşmışdır.

Nəticəyönlü idarəetmə modelində təlim prosesində iştirak edən bütün tərəflərin fəaliyyət göstəriciləri (keyfiyyət, məhsuldarlıq, davamiyyət, nəticə analizi) konkret meyarlar əsasında qiymətləndirilir. Bu sistemdə müəllimlərin fəaliyyətləri yalnız tədris saatları ilə deyil, həm də kursantın inkişaf dinamikası ilə ölçülür. Müvafiq təhlil nəticələrinə əsasən tədris proqramlarında və metodik materiallarda dəyişikliklər aparılır [5, s.56].

Tədris prosesinin idarə olunmasında innovativ texnologiyaların tətbiqi Azərbaycan hərbi təhsilində yeni mərhələyə keçidi simvolizə edir. Elektron idarəetmə panelləri, tədris planlarının elektronlaşdırılması, PUA idarəsi üzrə simulyatorlar, liderlik üzrə interaktiv təlim platformaları artıq bir sıra hərbi məktəblərdə tətbiq olunur. Bu sistemlər, tədris prosesini nəinki optimallaşdırır, eyni zamanda, idarəetmə prosesinin şəffaflığını və operativliyini artırır [6].

Rəqəmsal idarəetmə modelləri eyni zamanda müəllim və təlimatçı heyətin fəaliyyətinin təhlili, kursantların fərdi inkişaf izlənməsi və tədris resurslarının idarə olunmasında ciddi üstünlüklər yaradır. Bu texnologiyalar süni intellekt və böyük verilənlər analizinə əsaslanan qərarvermə mexanizmlərinin tətbiqinə də zəmin yaradır.

Azərbaycanın NATO ilə əməkdaşlığı çərçivəsində bir sıra hərbi təhsil proqramlarında idarəetmə standartlarının uyğunlaşdırılması prosesi həyata keçirilir. Xüsusilə tədrisin planlaşdırılması, təlim modul və fənn standartlarının müəyyənləşdirilməsi, tədris nəticələrinin qiymətləndirilməsi kimi sahələrdə STANAG sənədlərinə uyğun idarəetmə mexanizmləri tətbiq edilir [4].

Bu model ali hərbi məktəblərə beynəlxalq təlim-tədris layihələrində daha fəal iştirak imkanı yaradır, kursantların xarici təhsil mühitinə uyğunlaşmasını asanlaşdırır və müəllim heyətinin peşəkar inkişafına stimul verir.

## 3.Müasir texnologiyaların inteqrasiyası: Azərbaycan hərbi təhsil sistemində yeni mərhələ

Qlobal miqyasda hərbi texnologiyaların inkişafı və informasiya-kommunikasiya vasitələrinin (İKT) sürətlə silahlı qüvvələrin fəaliyyətinə daxil olması hərbi təhsilin də transformasiyasını zəruri etmişdir. XXI əsrdə ordu hazırlığı artıq yalnız fiziki və taktiki hazırlıqla kifayətlənmir, eyni zamanda texnoloji savadlılıq, rəqəmsal bacarıqlar və informasiya döyüş mühitində effektiv qərarvermə qabiliyyəti kimi bacarıqları da əhatə edir [7]. Bu baxımdan, Azərbaycanın ali hərbi təhsil müəssisələrində müasir texnologiyaların tədris prosesinə inteqrasiyası sistemin keyfiyyətini və operativliyini artıran əsas amillərdən birinə çevrilmişdir. Belə ki, Azərbaycanın ali hərbi məktəblərində 2020-ci ildən sonra rəqəmsallaşma prosesi daha intensiv şəkildə həyata keçirilməyə başlanmışdır. Bu proses çərçivəsində tədris planlarının və fənn proqramlarının elektron formatda hazırlanması, müəllim və kursantlar üçün onlayn resurs bazalarının yaradılması, e-dərs və test platformalarının tətbiqi genişləndirilmişdir.

Məsələn, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Elektron Tədris İdarəetmə Sistemi" (ETİS) yaradılmış, bu sistem vasitəsilə dərs planlaması, davamiyyətin izlənməsi və qiymətləndirmə prosesləri rəqəmsal formada aparılır [8].

Bu yanaşma tədris prosesinin şəffaflığını və operativliyini artırmaqla yanaşı, fərdi yanaşma və adaptiv təlim modelinə keçidə imkan yaradır. Kursantların təhsil nailiyyətləri və inkişaf dinamikası real vaxtda izlənə bilir, müəllim-təlimatçı heyəti isə resursları daha effektiv şəkildə bölüşə bilir [9, s.45].

Müasir döyüş şəraitinin real təcrübəsini laboratoriya mühitində əks etdirmək üçün simulyasiya əsaslı təlim texnologiyalarının da rolu xüsusilə vurğulanmalıdır. Artıq bir sıra ixtisas kurslarında (topçu-raket, PUA operatorluğu, tank və zirehli texnika idarəçiliyi) simulyatorlardan istifadə olunması geniş yayılıb. Bu texnologiyalar kursantlara risksiz mühitdə real döyüş situasiyalarını analiz etmək, qərar vermək və əməliyyatları idarə etmək bacarığını inkişaf etdirmək imkanı yaradır [10].

Virtual reallıq (VR) əsaslı təlim proqramları isə liderlik, ərazi tanıma, taktiki hərəkətlərin koordinasiyası və döyüş stressinə qarşı psixoloji hazırlıq sahələrində tətbiq edilir. Məsələn, "*Taktik Liderlik Təlimi*" modulu çərçivəsində kursantlar VR dəbilqələr vasitəsilə real döyüş zonalarına bənzər 360° simulyasiyalarda iştirak edirlər. Bu texnologiya qərarvermə sürətini artırmaqla yanaşı, kursantın psixoloji dayanıqlığını da qiymətləndirməyə imkan verir [11, s.33].

Azərbaycanın müasir hərbi təcrübəsində - xüsusilə 2020-ci il Vətən müharibəsində - PUA texnologiyalarının uğurlu istifadəsi bu sahənin təhsil sistemində ayrıca modullar şəklində inteqrasiyasını zəruri etmişdir. Hazırda bir sıra ali hərbi ixtisaslar üzrə PUA texnologiyalarının idarə olunması, texniki baxımı və döyüş tətbiqi üzrə kurslar həyata keçirilir [12]. Bu kurslarda kursantlar həm nəzəri bilik, həm də simulyatorlar vasitəsilə praktiki bacarıqlar əldə edirlər.

Bununla yanaşı, müasir müharibə anlayışında kiberməkanda üstünlük əldə etmək də mühüm şərtdir. Bu səbəblə, "Kiber Təhlükəsizlik", "Elektron Müharibə" və "İnformasiya Əməliyyatları" fənləri Azərbaycan hərbi təhsil proqramlarına mərhələli şəkildə daxil edilmişdir. Bu istiqamətdə NATO DEEP (Defence Education Enhancement Programme) çərçivəsində keçirilən beynəlxalq təlimlər və təcrübə mübadiləsi layihələri önəmli rol oynayır [10].

Bütün bu texnoloji yeniliklərin üzərində yüksəldiyi növbəti mərhələ süni intellekt (SI) və böyük verilənlərin təhlili (Big Data) olacaqdır. Azərbaycan Müdafiə Nazirliyi tərəfindən 2023-cü ildə elan edilmiş "*Hərbi-Təhsil Texnologiyalarının İnkişaf Konsepsiyası*"nda bu sahəyə xüsusi yer ayrılmışdır. Burada süni intellekt alqoritmləri vasitəsilə kursantların psixoloji və akademik

göstəricilərinin analiz olunması, fərdi təlim trayektoriyalarının müəyyən edilməsi və adaptiv tədris platformalarının hazırlanması nəzərdə tutulur [8].

**4.Problemlər və təkmilləşdirmə imkanları**

Azərbaycan Respublikasında ali hərbi təhsil sistemində son illərdə mühüm nailiyyətlər əldə edilsə də, mövcud strukturun səmərəliliyini artırmaq məqsədilə bəzi sistematik və funksional problemlərin hələ də mövcud olduğu müşahidə olunur. Tədris prosesinin idarə olunması sahəsində bu problemlər əsasən idarəetmədə çevikliyin məhdudluğu, ixtisaslı kadr çatışmazlığı, texniki və metodoloji resursların bərabər bölüşdürülməməsi, həmçinin beynəlxalq təcrübələrin institusional inteqrasiyasında qeyri-bərabərlik kimi sahələrdə özünü göstərir [13; 14].

Ali hərbi təhsil müəssisələrinin inkişafında qarşıya çıxan əsas problemlərdən biri təlim-tədris prosesində iştirak edən ixtisaslı müəllim və təlimatçı heyətin məhdudluğudur. Mövcud müəllim kontingentinin bir qismi mülki təhsil təcrübəsinə malik olsa da, müasir hərbi əməliyyatların xüsusiyyətlərini dərindən bilən, texnologiya yönümlü və beynəlxalq metodologiyalara əsaslanan təlim verə biləcək mütəxəssislərin sayında çatışmazlıq müşahidə olunur [15]. Bu, xüsusilə PUA texnologiyası, kiber təhlükəsizlik, süni intellekt və hibrid müharibə strategiyaları üzrə proqramların tədrisində özünü daha qabarıq şəkildə göstərir.

Bu problemin səbəblərindən biri də hərbi pedaqoji sahənin özündə elmi-tədqiqat və akademik hazırlıq mexanizmlərinin hələ tam oturuşmamasıdır. Hərbi müəllimlərin elmi dərəcə alma imkanlarının məhdud olması və bu istiqamətdə xüsusi tədqiqat mərkəzlərinin azlığı təlim keyfiyyətinə dolayı təsir edir.

Rəqəmsallaşma və simulyasiya texnologiyalarının hərbi təhsildə effektiv tətbiqi üçün güclü texniki baza zəruridir. Lakin bu gün Azərbaycanın ali hərbi təhsil müəssisələri arasında maddi-texniki təminat baxımından fərqliliklər mövcuddur. Bəzi ixtisaslaşdırılmış hərbi məktəblərdə simulyator otaqları, virtual təlim qurğuları və elektron idarəetmə sistemləri mövcud olduğu halda, digər müəssisələrdə bu resurslara çıxış məhduddur [16, s.28].

Bu fərqliliklər təlimin vahid və bərabər keyfiyyətlə həyata keçirilməsinə mane olur və tədris nəticələrinin qeyri-bərabərliyinə səbəb ola bilər. Həmçinin bu, idarəetmə səviyyəsində planlaşdırma və resurs bölgüsünün daha effektiv mexanizmlərlə tənzimlənməsini tələb edir.

Azərbaycan Silahlı Qüvvələri NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı və DEEP (*Defence Education Enhancement Programme*) çərçivəsində təhsil sahəsində əməkdaşlıq etsə də, bu əməkdaşlığın nəticələrinin bütün ali hərbi təhsil müəssisələrinə eyni səviyyədə inteqrasiyası hələ də tam təmin olunmayıb. Əksər hallarda beynəlxalq təlim və proqramlar pilot xarakter daşıyır və yalnız bir neçə müəssisədə tətbiq olunur [10].

Bu isə ölkə daxilində tədrisin beynəlxalq standartlara uyğun vahid formatda aparılmasına əngəl yaradır. Nəticədə, NATO və digər tərəfdaşlarla qarşılıqlı tanınma və sertifikasiya imkanları da məhdudlaşır. Problem həm də dil hazırlığı və metodoloji uyğunluq sahələrində əlavə işlərin görülməsini zəruri edir.

Azərbaycanın hərbi təhsil sistemində yuxarıda sadalanan problemlərin aradan qaldırılması və tədris prosesinin idarəetmə səviyyəsində təkmilləşdirilməsi üçün bir sıra strateji və praktiki tədbirlərin həyata keçirilməsi zəruridir. İlk olaraq kadr hazırlığı və elmi-tədqiqat institutlarının gücləndirilməsidir. Belə ki, ixtisaslı hərbi pedaqoqların yetişdirilməsi məqsədilə xüsusi hərbi-pedaqoji institutların yaradılması və mövcud kadrların müntəzəm olaraq xaricdə təkmilləşdirmə proqramlarına göndərilməsi məqsədəuyğundur. Xüsusilə Türkiyə, Almaniya və NATO üzvü olan digər ölkələrin hərbi akademiyalarında təlim keçmiş mütəxəssislərin təcrübəsi ölkə daxilində də geniş yayılmalıdır [17, s.45].

Bununla yanaşı, ali hərbi təhsil müəssisələrində elmi-tədqiqat laboratoriyalarının və tədqiqat qruplarının yaradılması, tədris prosesinin elmi baza üzərində qurulmasına töhfə verə bilər. Bu yanaşma həm də təlim-tədris proqramlarının davamlı yenilənməsini təmin edəcəkdir.

Növbəti inteqrasiyalı rəqəmsal platformaların yaradılmasıdır ki, bu da bütün hərbi təhsil müəssisələrində vahid rəqəmsal idarəetmə platformasının tətbiqi, elektron tədris modullarının mərkəzləşdirilməsi və simulyator resurslarının onlayn əlaqələndirilməsi sistemin effektivliyini artıracaqdır. Bu tip rəqəmsal ekosistemlər yalnız idarəetmə üçün deyil, həm də qiymətləndirmə və analitik təhlil üçün yeni imkanlar yarada bilər [18, s.54-62].

Mərkəzləşdirilmiş rəqəmsal baza həm resursların bərabər bölgüsünə, həm də tədris keyfiyyətinin ölkə miqyasında uyğunlaşdırılmasına töhfə verəcəkdir.

Beynəlxalq proqramların genişləndirilməsi və lokalizasiyası da ali hərbi təhsil müəssisələrində tədris prosesinin idarəetmə səviyyəsinin təkmilləşdirilməsinin prioritet məqsədidir. Belə ki, NATO DEEP və digər beynəlxalq hərbi təhsil proqramlarının yalnız pilot layihələr kimi deyil, genişmiqyaslı və sistemli şəkildə tətbiqi vacibdir. Bu proqramların Azərbaycan təhsil mühitinə uyğunlaşdırılması (lokalizasiya), dil və mədəni uyğunluğun təmin olunması tədrisin effektivliyini əhəmiyyətli dərəcədə artıracaqdır. Eyni zamanda, beynəlxalq sertifikatlı kursların təşkil olunması kursantların və təlimatçı heyətin peşəkar statusunu gücləndirəcək [4].

## 5.Nəticə

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan Respublikasının ali hərbi təhsil müəssisələrində tədris prosesinin idarə olunması sahəsində mühüm nailiyyətlər əldə edilməsinə baxmayaraq, bir sıra sistematik və metodoloji problemlər hələ də aktuallığını qoruyur. Klassik hərbi idarəetmə

modeli ilə yanaşı, son illərdə funksional-modul yanaşmalar, rəqəmsallaşma və nəticəyönlü idarəetmə mexanizmləri tətbiq olunmağa başlanmışdır. Müasir texnologiyaların, o cümlədən simulyasiya sistemləri, pilotsuz uçuş aparatları və süni intellekt alətlərinin təlimə inteqrasiyası tədris keyfiyyətinə müsbət təsir göstərməkdədir.

Bununla belə, ixtisaslı təlim heyətinin çatışmazlığı, texniki resursların qeyri-bərabər bölgüsü və beynəlxalq proqramların sistemli inteqrasiyasında çətinliklər müşahidə olunur. Təkmilləşdirmə istiqamətləri kimi kadr hazırlığına dair xüsusi proqramların genişləndirilməsi, rəqəmsal təlim platformalarının vahid şəkildə tətbiqi və beynəlxalq təcrübələrin lokal kontekstdə tətbiqi tövsiyə olunur. Bu yanaşmalar, Azərbaycanın hərbi təhsil sisteminin daha çevik, effektiv və strateji məqsədlərə uyğun şəkildə inkişafını təmin edə bilər.

## 6.ƏDƏBİYYAT

**1.** Əliyev, V. (2018). *Azərbaycan Respublikasında hərbi təhsil sisteminin inkişafı*. Bakı: Təhsil Nəşriyyatı.
**2.** Həsənov, Z. (2021). *44 Günlük Vətən Müharibəsi və Hərbi Təlim Sistemində Yeni Yanaşmalar*. Azərbaycan Respublikası Müdafiə Nazirliyi Rəsmi Materialları.
**3.** Müdafiə Nazirliyi. (2021). *Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi haqqında*. https://mod.gov.az/en/military-institute-named-after-heydar-aliyev-070/
**4.** NATO. (2020). *Partnership for Peace: Education and Training in the South Caucasus*.
**5.** Əliyev, A., & Məmmədov, S. (2019). Hərbi təlimin idarə olunmasında müasir yanaşmalar. *“Milli Müdafiə və Təhlükəsizlik” jurnalı*, *3*(2).
**6.** Müdafiə Nazirliyi. (2023). *Azərbaycan Hərbi Təhsilində Rəqəmsallaşma Strategiyası*. Təlim və Tədris Baş İdarəsinin hesabatı.
**7.** Smith, R. (2020). *Digital War: How Technology Is Changing the Battlefield and the Classroom*. Cambridge: Polity Press.
**8.** Müdafiə Nazirliyi. (2023). *Azərbaycan Hərbi Təhsil Sistemində Elektron İdarəetmə və Texnoloji İnnovasiyalar haqqında hesabat*. Bakı: Təlim və Tədris Baş İdarəsi.
**9.** Quliyev, E., & Hüseynov, A. (2021). Hərbi təlimdə rəqəmsallaşmanın rolu: Azərbaycan təcrübəsi. *Milli Müdafiə və Təhsil*, *6*(1).
**10.** NATO DEEP. (2020). *Defence Education Enhancement Programme: South Caucasus Report*. NATO Education Portal. https://www.nato.int/cps/en/natohq/topics_139182.htm
**11.** Petrovic, M. (2021). Virtual Reality in Military Education: Enhancing Tactical Readiness. *Journal of Modern Military Training*, *12*(3).

**12.** Əliyev, V. (2022). *Müasir döyüş texnologiyaları və hərbi təhsildə transformasiya*. Bakı: Təhsil və Təhlükəsizlik Nəşriyyatı.
**13.** Əliyev, V. (2020). *Müasir Hərbi Təhsilin İdarəetmə Problemləri və Perspektivləri*. Bakı: Təhlükəsizlik və Təhsil Nəşriyyatı.
**14.** NATO DEEP. (2021). *Education Transformation and Curriculum Development in Partner Countries*. NATO Education Portal.
**15.** Həsənov, Z. (2022). *Vətən Müharibəsi Sonrası Hərbi Təhsilin Yenidən Qurulması*. Bakı: Müdafiə Nazirliyi Nəşriyyatı.
**16.** Quliyev, A., & Məmmədov, S. (2021). Hərbi məktəblərdə texnoloji resurslardan istifadə: Mövcud vəziyyət və tövsiyələr. *Hərbi Elmi Araşdırmalar*, *2*(3).
**17.** Əliyev, R., & Nuriyev, T. (2021). Azərbaycan hərbi təhsil sistemində kadr hazırlığı sahəsində problemlər və təkliflər. *Milli Müdafiə və Təhsil*, *4*(1).
**18.** Petrovic, M. (2022). Digital Tools in Military Education Management Systems. *Journal of Strategic Education Reform*, *13*(1).


## REFERENCES


**1.** Aliyev, V. (2018). *Development of the military education system in the Republic of Azerbaijan*. Baku: Tehsil Publishing. (in Azerbaijani)
**2.** Hasanov, Z. (2021). *The 44-Day Patriotic War and new approaches in the military training system*. Official Materials of the Ministry of Defence of the Republic of Azerbaijan. (in Azerbaijani)
**3.** Ministry of Defence. (2021). *About the Azerbaijan Higher Military School named after Heydar Aliyev*. https://mod.gov.az/en/military-institute-named-after-heydar-aliyev-070/ (in Azerbaijani)
**4.** NATO. (2020). *Partnership for Peace: Education and training in the South Caucasus*. (in English)
**5.** Aliyev, A., & Mammadov, S. (2019). Modern approaches in the management of military training. *Milli Mudafie ve Tehlukesizlik, 3*(2). (in Azerbaijani)
**6.** Ministry of Defence. (2023). *Digitalization strategy in Azerbaijani military education*. Report of the Training and Education Department. (in Azerbaijani)
**7.** Smith, R. (2020). *Digital war: How technology is changing the battlefield and the classroom*. Cambridge: Polity Press. (in English)
**8.** Ministry of Defence. (2023). *Report on electronic management and technological innovations in the Azerbaijani military education system*. Baku: Training and Education Department. (in Azerbaijani)
**9.** Guliyev, E., & Huseynov, A. (2021). The role of digitalization in military training: The Azerbaijani experience. *Milli Mudafie ve Tehsil*, *6*(1). (in Azerbaijani)

**10.** NATO DEEP. (2020). *Defence Education Enhancement Programme: South Caucasus Report*. NATO Education Portal. https://www.nato.int/cps/en/natohq/topics_139182.htm (in English)
**11.** Petrovic, M. (2021). Virtual reality in military education: Enhancing tactical readiness. *Journal of Modern Military Training*, *12*(3). (in English)
**12.** Aliyev, V. (2022). *Modern combat technologies and transformation in military education*. Baku: Tehsil ve Tehlukesizlik Publishing. (in Azerbaijani)
**13.** Aliyev, V. (2020). *Management problems and perspectives of modern military education*. Baku: Tehlukesizlik ve Tehsil Publishing. (in Azerbaijani)
**14.** NATO DEEP. (2021). *Education transformation and curriculum development in partner countries*. NATO Education Portal. (in English)
**15.** Hasanov, Z. (2022). *Reconstruction of military education after the Patriotic War*. Baku: Mudafie Nazirliyi Publishing. (in Azerbaijani)
**16.** Guliyev, A., & Mammadov, S. (2021). Use of technological resources in military schools: Current situation and recommendations. *Herbi Elmi Arashdirmalar*, *2*(3). (in Azerbaijani)
**17.** Aliyev, R., & Nuriyev, T. (2021). Problems and proposals in personnel training in the Azerbaijani military education system. *Milli Mudafie ve Tehsil*, *4*(1). (in Azerbaijani)
**18.** Petrovic, M. (2022). Digital tools in military education management systems. *Journal of Strategic Education Reform*, *13*(1). (in English)